# Prezident Rəcəb Tayyib Ərdoğan "Twitter" səhifəsində Azərbaycanın Müstəqilliyi Günü münasibətilə təbriklərini çatdırıb

Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan özünün rəsmi "Twitter" səhifəsində 18 oktyabr - Azərbaycanın Müstəqilliyi Günü münasibətilə təbriklərini çatdırıb.

AZƏRTAC xəbər verir ki, Türkiyə Prezidentinin paylaşımında qeyd olunub: "Can qardaşımız, can dostumuz Azərbaycanın 18 oktyabr - Müstəqillik Gününü təbrik edirəm. Bir millət, iki dövlət amalı ilə Azərbaycanı hər sahədə dəstəkləməkdə və Vətən uğrunda mübarizəsində qardaşlarımızın yanında olmaqda davam edəcəyik".

Azərbaycan.- 2020.-20 oktyabr.- S. 1.